


*Daxili İşlər Nazirliyində işləmək, onun əməkdaşı, zabiti olmaq bir tərəfdən şərəflidir, ikinci tərəfdən də çox məsuliyyətli, əzab əziyyətlidir.*

Heydər Əliyev

# MÜBARİZ KEŞİKDƏ

14 may 2020-ci il
Cümə axşamı

№ 16 (3481)

www.mk.mia.gov.az

- polisazerbaycan

1933-cü ildən çıxır

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI


## ZƏMANƏMİZİN BÖYÜK AZƏRBAYCANLISI



Mayın 10-da, xalqımızın xilaskar oğlu Heydər Əliyevin doğum günündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fəxri xiyabanda ümummilli liderin məzarını ziyarət ediblər.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ümummilli lider Heydər Əliyevin məzarı önünə gül qoyublar, ulu öndərin xatirəsini ehtiramla anıblar.

Dövlətimizin başçısı və xanımı ulu öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini ehtiramla anaraq məzarı üzərinə gül dəstələri qoyublar.

Prezident və birinci xanım görkəmli dövlət xadimi Əziz Əliyevin və tanınmış həkim-alim Tamerlan Əliyevin məzarları üzərinə də gül dəstələri düzüblər.

## HƏMİŞƏYAŞIL AZƏRBAYCAN ÜÇÜN

Mayın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ulu öndər Heydər Əliyevin doğum günü münasibətilə Bakının Suraxanı rayonundakı keçmiş yod-brom zavodunun ərazisində ağac əkiblər.

Dövlətimizin başçısının tapşırığına əsasən, 2018-ci ildən başlayaraq bu ərazidə 167 hektar sahənin lay suları, neft, duz, yod və digər tullantılardan təmizlənərək bərpa edilməsinə başlanılıb.

Qeyd edək ki, son illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda ekoloji vəziyyətin yaxşılaşdırılmasına, yeni yaşıllıq zolaqlarının, meşə massivlərinin salınmasına, mövcud yaşıllıqların sahəsinin daha da genişləndirilməsinə xüsusi diqqət göstərilir. Ölkəmizdə bu siyasətin əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulub.

Ümummilli lider Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə ətraf mühitin mühafizəsinə, yaşıllığı az olan ərazilərin, o cümlədən də Bakının və Abşeron yarımadasının təbii landşaftının yaşıllıq zolaqları, meşə-parklarla zənginləşdirilməsinə, paytaxtımızın yaşıllıqlar şəhərinə çevrilməsinə çox böyük önəm verib.



Azərbaycanda ekoloji durumun yaxşılaşdırılması istiqamətində həyata keçirilən işlərə birinci xanım Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da mühüm töhfələr verib. Birinci xanımın təşəbbüsü ilə 2019-cu ildə mütəfəkkir şair İmadəddin Nəsiminin yubileyinə həsr olunan aksiyada ölkə üzrə bir gündə 650 min ağacın əkilməsi, ümumilikdə, Azərbaycanın ekoloji durumuna çox müsbət təsir göstərməklə, yaşıllıq zolaqlarının miqyasının artmasına səbəb olub.

## Prezidentin Mətbuat Xidmətindən

Mayın 8-də Pakistan İslam Respublikasının Prezidenti Arif Alvi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.

Pakistan Prezidenti Arif Alvi Prezident İlham Əliyevin təşəbbüsü ilə bu yaxınlarda Qoşulmama Hərəkatının koronavirusla mübarizəyə həsr olunmuş videokonfransının keçirilməsi münasibətilə təbriklərini çatdırıb və konfransın pandemiya ilə mübarizə sahəsində səylərin gücləndirilməsi baxımından önəmini qeyd edib.

Dövlət başçıları beynəlxalq səviyyədə ölkələrimizin bundan sonra da bir-birilərinin mövqeyini dəstəkləyəcəklərinə əminliklərini ifadə edib, ikitərəfli münasibətlərin perspektivləri, o cümlədən iqtisadi və ticarət əlaqələrinin inkişafı ilə bağlı fikir mübadiləsi aparıblar.

*****

Mayın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə telefonla zəng edib.

Prezident İlham Əliyev Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi münasibətilə Rusiya Prezidentini və dost Rusiya xalqını təbrik edib.

Vladimir Putin göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib, öz növbəsində, bayram münasibətilə Azərbaycan Prezidentinə və dost Azərbaycan xalqına təbriklərini çatdırıb.

Telefon söhbəti zamanı Azərbaycanla Rusiya arasında strateji tərəfdaşlıq münasibətlərinin gələcək inkişafı ilə bağlı məsələlər müzakirə edilib.

## Vətəndaşların sağlamlığı prioritetdir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 12-də Sumqayıtda "Gilan Tekstil Park" Məhdud Məsuliyyətli Cəmiyyətinin tibbi maska fabrikinin və tikiş fabrikinin nəzdində fəaliyyət göstərən qoruyucu kombinezonların istehsalı müəssisəsinin açılışında iştirak ediblər.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva müəssisələrin bir qrup işçisi ilə görüşüblər.

Dövlətimizin başçısı görüşdə çıxış edib.

***Azərbaycan Prezidenti İlham Əliyev mayın 7-də Rusiyanın TASS informasiya agentliyinin baş direktorunun birinci müavini Mixail Qusmana eksklüziv müsahibə verib.***

**Mayın 9-da faşizm üzərində tarixi Qələbənin 75 illiyi münasibətilə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun məzarını ziyarət edərək abidəsi önünə gül dəstələri qoyub, müharibədə həlak olan bütün Azərbaycan övladlarının xatirəsini ehtiramla anıblar.**

***Azərbaycan Prezidenti İlham Əliyev mayın 6-da Azərbaycan Respublikasında təhsil infrastrukturunun inkişafı ilə əlaqədar əlavə tədbirlər haqqında sərəncam imzalayıb.***

***Mayın 7-də ölkəmizin rəhbəri Azərbaycan mədəniyyət xadimlərinin mükafatlandırılması haqqında sərəncam imzalayıb.***

***Mayın 12-də dövlətimizin başçısı Aqil Muxtar oğlu Şirinov Azərbaycan İlahiyyat İnstitutunun rektoru təyin edilməsi haqqında sərəncam imzalayıb.***

## ŞƏXSİ HEYƏTİN XİDMƏT ŞƏRAİTİ DAHA DA YAXŞILAŞIR

Ulu öndər Heydər Əliyevin anadan olmasının 97-ci ildönümü ərəfəsində Azərbaycan Respublikası DİN-in Baş İctimai Təhlükəsizlik və Mülki Müdafiə idarələrinin yerləşəcəyi inzibati binanın yenidənqurma və əsaslı təmirdən sonra açılışı olub.

Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov tədbirdə iştirak edib.

Maddi-Texniki Təminat Baş İdarəsinin rəisi, polis general-mayoru Elçin Həsənov görülən işlər barədə nazirə məlumat verərək bildirib ki, 4 mərtəbəli xidməti binanın əsaslı təmir və yenidənqurma işlərinə ötən ilin noyabrında başlanılıb, müasir standartlara uyğun olaraq əsaslı təmir edilib.





Binanın fasadı dekorativ aqlay daşı ilə üzlənib, paslanmaz dəmirdən məhəccərlər qurulub, xidməti otaqlar müasir tələblərə uyğun keyfiyyətli materiallardan istifadə edilməklə təmir olunub, zəruri mühəndis təminatı işləri görülüb.

*Ardı 2-ci səhifədə.*

# ŞƏXSİ HEYƏTİN XİDMƏT ŞƏRAİTİ DAHA DA YAXŞILAŞIR



*Əvvəli 1-ci səhifədə.*

Qeyd olunub ki, ümumi sahəsi 1556 kvadratmetr olan inzibati bina bütün zəruri kommunikasiyalarla təchiz edilib. Xidməti otaqlar mebel və inventarlarla təmin olunub. Ərazidə abadlaşdırma, yaşıllaşdırma və xarici işıqlandırma işləri yerinə yetirilib.

General-polkovnik Vilayət Eyvazov binadakı xidməti otaqlar, müasir avadanlıqlar və digər yardımçı sahələrlə yaxından tanış olub, ulu öndər Heydər Əliyevin zəngin və mənalı həyat yolunu, Azərbaycan Prezidenti cənab İlham Əliyevin daxili və xarici siyasət sahəsində əldə etdiyi uğurları, daxili işlər orqanlarına xüsusi diqqət və qayğısını əks etdirən fotostendlərə baxıb.

Nazir görülən işləri yüksək qiymətləndirib, şəxsi heyətin normal fəaliyyət göstərməsi üçün yaradılan şəraitdən məmnunluğunu ifadə edib, konkret tapşırıqlarını verib.

O, vurğulayıb ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilən hüquqi-demokratik, sosial-iqtisadi islahatlar, ölkəmizin siyasi, hərbi və iqtisadi qüdrətinin daha da yüksəldilməsi istiqamətində aparılan geniş quruculuq işləri, fəal hüquq mühafizə siyasəti daxili işlər orqanlarının da fəaliyyətinin ən müasir tələblər səviyyəsində təkmilləşdirilməsi, maddi-texniki təminatının, şəxsi heyətin məişət və xidməti iş şəraitinin daha da yaxşılaşdırılması istiqamətində əhəmiyyətli addımların atılmasına əlverişli şərait yaradıb.




Daxili İşlər naziri əmin olduğunu bildirib ki, şəxsi heyət dövlət başçımızın daxili işlər orqanlarına göstərdiyi ali diqqət və qayğıya əməli işlə cavab verəcək, sabitliyin, əmin-amanlığın, ictimai təhlükəsizliyin nümunəvi qorunması sahəsində bundan sonra da qarşıya qoyulan bütün tapşırıqların öhdəsindən yüksək səviyyədə və məsuliyyətlə gələcəkdir.

**Hər il mayın 18-ni dünya ictimaiyyəti Beynəlxalq Muzeylər Günü kimi qeyd edir. Bu gün 1977-ci ildə Beynəlxalq Muzeylər Şurasının 11-ci konfransında sovet nümayəndə heyətinin təklifi ilə təsis olunmuşdur.**



Ölkəmizdə fəaliyyət göstərən 201 muzeyin 22-si erməni işğalı altındadır. Torpaqlarımızın işğalı muzeylərimizin talanması, mənimsənilməsi ilə nəticələnmişdir. Yandırılmış, yerlə-yeksan edilmiş muzeylərdən 100 mindən çox qiymətli əşya və nadir eksponat oğurlanıb.

Azərbaycan torpaqlarında mədəni irsi məhv etmək, qədim tarixinə kölgə

## Tarixi qoruyanları qoruyaq

Dünyada ilk muzey Ellin dövründə qədim Misirin paytaxtı İsgəndəriyyə şəhərində yaradılmışdır.

XIX əsrin ikinci yarısından etibarən Azərbaycanın ictimai-siyasi və mədəni həyatında sürətlə cərəyan edən proseslər öz növbəsində muzey işinin təşkilinə təkan vermiş və ölkəmizdə müasir tipli muzeylərin yaradılmasına başlanmışdır. İlk belə muzeylərdən biri maarifpərvər yazıçı C.Məmmədquluzadənin təşəbbüsü və yaxından iştirakı ilə XIX əsrin sonlarında təşkil olunmuşdur.

salmaq, izlərini silmək üçün erməni vandalları 5 minə yaxın eksponatı olan Şuşa Tarix muzeyini, Azərbaycan xalçası və Xalq Tətbiqi Sənəti Dövlət muzeyi Şuşa filialını, 100-dək əşyası olan Dövlət Qarabağ Tarix muzeyini, Kəlbəcər, Zəngilan, Laçın, Qubadlı, Ağdam, Cəbrayıl, Füzuli, Xocalı rayonlarının Tarix Diyarşünaslıq muzeylərinin eksponatlarını talan etmiş, Daş heykəllər muzeyi yerlə-yeksan edilmişdir.

***Aytəkin Nəcəfova,***
***polis polkovnik-leytenantı***

# BÖYÜK QƏLƏBƏNİN BAHADIRLARI



**Düşmənə qarşı savaşda iştirak edən soydaşlarımız arasında daxili işlər orqanlarının 797 təmsilçisi də vardı.**

İkinci dünya müharibəsində faşizm üzərində Qələbədən 75 il keçir. Qələbənin əldə olunmasında Azərbaycan xalqının da böyük töhfəsi və rolu olub. Ulu öndər Heydər Əliyev ikinci dəfə Azərbaycana siyasi hakimiyyətə qayıtdıqdan sonra imzaladığı sərəncamla hər il mayın 9-u "Qələbə Günü" kimi rəsmi dövlət bayramı səviyyəsində qeyd edilməyə başlanıldı. Müharibə veteranlarının sosial-məişət şəraitinin, maddi rifahının yaxşılaşdırılması, onların müalicələrinin təşkili istiqamətində əsaslı tədbirlər həyata keçirildi, müvafiq fərman və sərəncamlar imzalandı.

Milli liderin Böyük Vətən müharibəsi iştirakçılarına, müharibədə həlak olanların ailələrinə göstərdiyi diqqət və qayğı bu gün ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir.



Mayın 8-də Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazovun tapşırığına əsasən Nazirliyin nümayəndələri alman faşizmi üzərində möhtəşəm qələbədən sonra həyatlarını daxili işlər orqanlarında xidmətə həsr etmiş bir qrup 1941-1945-ci illər müharibəsi iştirakçısının evində olmuş, nazir V.Eyvazovun səmimi təbriklərini və bayram hədiyyəsini onlara çatdırmışlar.

Veteranlardan Müseyib İlyasov, Mehdi Mehdiyev, Əli Hacıyev, Əlikişi Cümşüdov, Səfər Abdullayev və Əzim İbrahimov göstərdiyi yüksək diqqət və qayğıya görə Daxili İşlər Nazirliyinin rəhbərliyinə dərin minnətdarlıq edərək bundan sonra da gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunmasında, eləcə də xidmətə yeni qəbul olunmuş gənc polis əməkdaşları ilə öz təcrübələrini bölüşmək üçün əllərindən gələni əsirgəməyəcəklərini bildirmişlər.

***Zeyni Hüseynov,***
***polis leytenantı***

# Nə yaxşı ki, xatirələr yaşayır

**Çoxlarının arzusunda olduğu mundiri geyinəndə sevinci yerə-göyə sığmayıb. Arıq, çəlimsiz qızın milisin sıralarına qoşulmasına valideynləri razılıq versə də, yaxınları istəyinə qarşı çıxıblar. Özünütəsdiq üçün seçdiyi və sevdiyi peşə uğrunda ilk mübarizə apardığı yaxınları olub.**

Beləcə, bərkə-boşa düşüb və qatı açılmayan cinayətlərin açılmasında göstərdiyi qətiyyət çoxlarını, elə milisə gələn yollarını bağlamaq istəyənləri də heyran qoyub. Dönməzliyi, tələbkarlığı ilə fərqlənib. Çalışıb ki, xidmətdə qadın olduğuna görə ona güzəşt etməsinlər. Hörməti də, sevgini də peşəsinə münasibətilə qazanıb. O, səmərəli və fədakar əməyinə görə dəfələrlə mükafatlandırılıb. Nə çətindən qorxub, nə də ki, işin ağırından. Qadın ürəyinin odunda əridib uzun, qara gecələri…



Ölümündən bir neçə gün əvvəl ona "ötən günləri necə xatırlayırsız" sualı ilə müraciət edən jurnalistə cavabı belə olub: "Balıq dəryadan ayrılmadığı kimi, mən də peşəmdən ayrı qala bilmirəm".

Bu gün şirinli-acılı xatirələrdə ölməzlik qazanan polis mayoru Azadə Axundova 30 illik fəaliyyəti dövründə çoxlarına örnək bir ömür yaşadı. Peşəsi ilə nəfəs aldı. Ömür yolu, öz keçmişi ilə tanışlıqdan sonra aydın olur ki, iradəsi, cəsarəti, qanunların aliliyinə hörmətlə yanaşması, dövlətin və xalqın mənafeyinə xidmət etmək istəyi onu daxili işlər orqanlarına gətirib.

Azadə Gülbaba qızı Axundova 1930-cu il mayın 2-də Bakının Qala qəsəbəsində ziyalı ailəsində dünyaya gəlib. Ailədə 8 uşaq olublar. 1947-ci ildə Qala kəndindəki 185 saylı orta məktəbi bitirib. ***Tarixi, ədəbiyyatı sevib, atasının ona danışdığı cümhuriyyətimizin gerçək tarixini isə heç vaxt unutmayıb.***

A.Axundova 1951-1956-cı illərdə Azərbaycan Dövlət Universitetinin Hüquq fakültəsində təhsil alıb. Təyinatla Uşaq cəzaçəkmə müəssisəsinə göndərilib. Burda ilk cinayətini törətmiş uşaqların psixologiyasını öyrənib, onları pis əməllərdən, zərərli vərdişlərdən çəkindirmək üçün gecəsini-gündüzünə qatıb. Milis zabiti kimi ömrünün 5 ilini uşaqlara həsr edib. Sonra Daxili İşlər Nazirliyinin göndərişi ilə 26-lar Rayon Polis Şöbəsinə müstəntiq vəzifəsinə təyin olunub.

Peşəsinə, andına və dövlətə sadiqliyi rəhbərliyin diqqətindən kənarda qalmayıb. İllər ötdükcə həm təcrübə qazanıb, həm də çiynindəki ulduzların sayı çoxalıb. Beləcə, "leytenant"dan "mayor" rütbəsinədək ucalıb.

1974-1976-cı illərin onun taleyində xüsusi yeri var. Ölkədə rezonans doğuran bir çox cinayətlərin açılmasında fəal iştirakına, qətiyyətinə görə müxtəlif mükafatlara layiq görülüb. O, 1992-ci ildə Azərbaycan Siyasi Repressiya Qurbanları Assosiasiyasının üzvü seçilib. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Veteranı idi. 1984-cü ildə ehtiyatda olan milis mayoru kimi təqaüdə çıxıb.

O, bir qadın, ana kimi də ailədə öz missiyasını fədakarcasına yerinə yetirib, üstəlik "Neft Daşları"nda işləyən həyat yoldaşının da ailədəki yükünü çiyinlərində çəkib.

İllər ötüb, oğul evləndirib, qız köçürüb, nəvələrinin dilində nənə kimi əzizlənib, böyük bir ailənin ağbirçəyi olub.

Fədakar ana və polis ömrü yaşamış A.Axundova 2016-cı il noyabrın 18-də 86 yaşında dünyasını dəyişib. Yaşasaydı yeddi nəvəsi və yeddi nəticəsi ilə 90 yaşını qeyd edəcəkdi.

Peşəkarlığı, cəmiyyətdə şərəfli adı, ləyaqəti, ziyalılığı ilə yaddaşlarda qalmaq hamıya nəsib olmur. **Ondan yadigar qalan ağlı-qaralı şəkillərdən boylanan baxışlarından isə biz gənclərə ünvanlanan bu fikirləri oxuyuruq:** ***"Həyatın çətinliyi, əslində, onun gözəlliyidir. Çətindən qorxmayın, çünki sonunda əbədi bir rahatlıq var. Tarixdə yaşamaq və xatırlanmaq istəyirsinizsə dürüst və vicdanlı olun. İçdiyiniz anda sədaqətinizi isə həyatınız bahasına olsa belə sübut edin. Belə etsəniz xatirələrdə yaşayacaqsınız".***

***Hafiz Təmirov,***
***Teymur Əlizadə***




**Məlumat verildiyi kimi, koronavirus infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən 2020-ci il may ayının 1-dən ölkə ərazisində xüsusi sanitar rejim tətbiq edilir.**

## Vətəndaşların laqeydliyi narahatlıq doğurur

Qeyd edilməlidir ki, dövlətin həyata keçirdiyi əlaqədar tədbirlərdən irəli gələn tələblərə vətəndaşlar tərəfindən ümumən əməl edilsə də, son günlər ictimai yerlərdə tibbi maskadan istifadə edilməməsi, sosial məsafənin gözlənilməməsi kimi infeksiyanın yayılmasına şərait yaradan halların artması müşahidə edilir.

Vətəndaşlardan evdən çıxarkən, qapalı məkanlarda, xüsusən iaşə müəssisələrində, ictimai nəqliyyatda nəfəs yollarını qoruyan tibbi maskadan mütləq qaydada istifadə etmək, insanlarla təmas zamanı 2 metrlik ara məsafəsini saxlamaq, bütövlükdə karantin rejimi dövrü üçün müəyyən edilmiş qaydalara ciddi riayət etmək tələb olunur.

# Laçındı dərdimin adı

**“Mübaiz keşikdə”nin ağlı-qaralı səhifələrini vərəqləyirəm. Bu qocaman qəzet 1988-ci ilə qədər və ondan sonra ölkədə baş verən siyasi çaxnaşmalara, sovet boyunduruğundan qurtulmaq üçün Azərbaycan xalqının azadlıq mücadiləsinə, eləcə də o çətin dövrdə polis əməkdaşlarının ön cəbhədə erməni qəsbkarlarına, arxa cəbhədə isə cinayətkarlıqla qətiyyətli mübarizəsinə də şahidlik edib.**

İtirdiklərimizin, uğursuzluqlarımızın ağrısını yaşayıb, sevinci isə barmaqla sayılacaq qədər olub. İllər olub ki, onu da “sovetdən qalmadı” deyib gün işığına çıxmağa qoymayıblar. Qəzetdən, qəzetçilikdən anlayışı olmayanlar axı nə biləydilər ki, keçmiş unudulanda gələcək uzaq qaçır. Yanlışından ibrət götürmək hər kəsə nəsib olmur. Bütün dövrlərdə xalqın taleyini yaşayıb bu qəzet. Həmişə gözü yolda, qulağı səsdə olub.



Səhifələrində Xocalı, Kəlbəcər, Şuşa, Laçın... həsrətli yazıların başlıqlarını oxumaq yetər ki, orda sabaha olan ümidimizlə yanaşı, nisgilimizi də görək. Düzü, bəzi yazılarda Vətən dərdinə köklənməyənləri, sözlə dil tapa bilməyənləri də gördüm. Olur belə şeylər. Hər qələmi olanın ürəyi olmaz ki...

Bu misraları yazarkən indi elə bir ovqatdayam ki, onu sözlə ifadə etmək gücündə deyiləm. Xəyanətlər bizi həmişə arzuladığımız qələbədən uzaqlaşdırıb. Milli təəssübkeşliyi olmayanlara meydan veriləndə millətin aqibəti sual altında qalıb, torpağın taleyi düyünə düşüb.

Laçınsızlıqdır yenə dərdimin adı... Sözün ağzını kəsədən salmaq istəyirəm. Düz 28 ildir ki, Şuşanın işğalından sonra cəmi doqquz gün nəfəsimizlə isinən, onuncu gün isə düşmənə əsir düşən, yağmalanan Laçınımıza həsrətik. Bu 28 ildə sırası seyrəldi laçınlıların. Bu 28 ildə Laçınsız laçınlılar dünyaya gəldi. Bu 28 ildə o qədər günaha batdıq ki, İlahi...

“Mən öləndə gözümə Laçın torpağı tökərsiniz”,- deyib dünyadan köçən nənələrimizin, babalarımızın gözlərinə Bakı, Şəki, Saatlı, Sabirabad, Mingəçevir torpağı tökdük. Söz yox, o da Vətən torpağıdı. Amma...

Yarasını duz kimi yalayan torpağın dərdini yazıya almaq çox çətindir. Bilirəm ki, indi əzrayıldan möhlət gözləyib Vətənə dönəcəyi günləri təsbeh kimi sanıyanlar yurda dönəndə, elə Laçın dəhlizindəcə güllələnmiş əzizlərinin ruhunu dizlərinin üstünə alıb hönkürəcək, torpağı qucaqlayıb duz kimi yalayacaqlar. Görəsən Bakıda doğulanları Laçın illər sonra özünə çəkə biləcəkmi? Bəzi ağzıgöyçəklər deyirlər ki, çoxu unudub o torpaqları. Unutmuşuqmu? Unudubsanmı? Unutmuşammı? Yox, əsla, yox. Gedəcəyik! Dönəcəyik!

Əgər bu gün dünyaya gələn övladına doğulduğu yurdun adını qoyan, balasını hər Laçın çağıranda dodağı yeddi yerdən çatlayan oğullar varsa, Laçın da var, Şuşa da, Kəlbəcər də, Qubadlı da, Cəbrayıl da... Bütöv Azərbaycan da...

Yolların kənarına vurulmuş lövhələrə baxmaqdan, kilometrləri xəyalən aşıb o yerləri dolanmaqdan, yuxularda Vətən deməkdən ağır dərd yoxdur dünyada...

***Əs Şuşadan Xan avazı,***
***Suyu yansın xan Arazın,***
***Durnatelli xan Eyvazın***
***Həsrətindən xəstə Nigar***
***Bəstənigar.***

***Çin çıxmayan Laçın yuxum,***
***Xarı bülbül qara qoxum,***
***Görüş yeri varım, yoxum***
***Yaman durub qəsdə nigar***
***Bəstənigar.***

Bu mahnını Məhəbbətdən sonra neçə məhəbbətlər oxuyacaq. Ağa Laçınlının laçın şeirləri ürəyimizin quşqonmaz zirvələrinə qonacaq. Laçın dağlarından Xanın səsi, avazı Şuşa dağlarına çatacaq. **Qarabağda dalğalanacaq üçrəngli bayrağa İrəvandan, Təbrizdən, Dərbənddən, Borçalıdan əsən yellər salam göndərəcək.**

Şuşanın işğalından sonra Laçın ağrısını da bizə yaşadan düşmənə məğlubiyyət acısını yaşatmaqdan başqa yolumuz yoxdur.

***Hafiz Təmirov,***
***polis polkovnik-leytenantı***

# “ƏKİNÇİ”NİN YADİGARI

**Zərdabinin səbr "kasası" o zaman daşmışdı ki, qeyri-millətlərin əlində qəzet, jurnal, kitab görmüşdü. Öz dilindən və dinindən olanların cəhalətdə gün keçirmələri onu yumağa döndərmişdi. Dünyasını dəyişənə kimi millətə xidmətin “Əkinçi” nümunəsi oldu Həsən bəy Zərdabi. Müəllim ömrünün necə şam kimi əridiyini, su kimi həyat bəxş etdiyini “Oxutmuram, əl çəkin” deyənlər anlaya bilməzdi. Ölümündən sonra hərf öyrətdiyi, oxumağı, yazmağı sevdirdiyi yetirmələrinin əli çörəyə çatanda, qeyri-millətlər içində söz sahibi olanda anladılar Həsən bəyi: müəllimi-dananı.**




Elmi fəaliyyətlə yanaşı, Həsən bəy səxavətli olmağı ilə də xalqın rəğbətini qazanmışdı...

Bu günlərdə polis əməkdaşları Zərdabın Qoruqbağı kəndində bir nəfərdə H.Zərdabiyə məxsus 2 ədəd mis kasanın olduğu haqda məlumat əldə ediblər. Məlum olub ki, bu kasaları böyük mütəfəkkir həmin kənddə ailə quran cavanlara bağışlayıbmış.



Onları uzun illər qoruyub-saxlayan Zərdab rayon sakini Sərəncam Hüseynova kasaların tarixindən danışarkən bildirib ki, babası həmin dövrdə Kür çayında bərəçiliklə məşğul olub. Bir gün onun bərəsinə Həsən bəy Zərdabi minib. Şirvan ərazisinə gedən yolda söhbət əsnasında Həsən bəy bərəçinin ailə vəziyyətini öyrənib. Biləndə ki, qızının toyu olacaq, “Bu da məndən qızına hədiyyə” deyərək bağlamasından iki ədəd kasa çıxarıb ona bağışlayıb. Ötən illər ərzində evdə kasalara xüsusi diqqətlə yanaşılıb, “bəy kasası” kimi əzizlənib.

İllər keçdikdən sonra S.Hüseynova kasaları ədibin ev muzeyinə bağışlamaq qərarına gəlib. Onları yaxın qohumuna verib. Qohumu isə...

Zərdab Rayon Polis Şöbəsinin əməkdaşları məsələyə biganə qalmayıblar. Polis mayoru Tumarxan Ağayev və polis baş leytenantı Murad Muradlı kasaları muzeyə təhvil verməyən şəxslə görüşüb, eksponatların tarixi dəyərini izah edib, onların muzeyə verilməsinin vacib olduğunu bildiriblər. Beləcə, “Əkinçi” yadigarı həmkarlarımızın sayəsində “həyata qaytarılıb”.

***Aslan Qiyaslı,***
***polis baş leytenantı***

# Polis köməyə tələsir

**Respublikanın digər şəhər və rayonlarında olduğu kimi Abşeronda da vətəndaşların sağlamlığının qorunması, koronavirus infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə polis əməkdaşları tərəfindən maarifləndirici, izahedici söhbətlər aparılır.**






Abşeron Rayon Polis İdarəsinin əməkdaşları tərəfindən vətəndaşlara evdən çıxarkən, qapalı məkanlarda, xüsusən iaşə müəssisələrində, ictimai nəqliyyatda nəfəs yollarını qoruyan tibbi maskadan mütləq qaydada istifadə etmək, insanlarla təmas zamanı 2 metrlik ara məsafəsini saxlamaq və onların sağlamlıqlarının qorunması ilə bağlı tövsiyələr verilir. Bankların, poçt filiallarının qarşısında, əhalinin sıx olduğu digər ərazilərdə sosial izolyasiya tədbirlərinə nəzarət olunur, vətəndaşlara tibbi maska və əlcəklər paylanır.

Tədbirlər çərçivəsində Rayon Polis İdarəsinin şəxsi heyəti “Evdəqal” çağırışına əməl edən aztəminatlı ailələri ziyarət edib, onlara maddi yardım göstəriblər. Həmkarlarımız şəhid polis ailələrini və veteranları da unutmayıblar.

# Xidmətimiz məmnunluqla qarşılanır




Ölkəmizdə karantin rejiminin qaydaları yumşaldılsa da koronavirus pandemiyasının yayılmasının qarşısının alınması istiqamətində tədbirlər davam etdirilir. Ölkəmizdə tətbiq edilən karantin rejiminə nəzarəti həyata keçirən daxili işlər orqanları əməkdaşları əhalinin karantin qaydalarına əməl etməsi üçün var gücünü səfərbər edib.

Növbəti belə tədbirlərdən biri də paytaxtın Xəzər rayonunda baş tutub. Belə ki, maddi yardımların verilməsi ilə bağlı Binə qəsəbəsindəki poçt məntəqələrinin, bankların, idarələrin qarşısına toplaşan vətəndaşlara Xəzər RPİ 3-cü Polis Bölməsinin əməkdaşları xüsusi karantin rejiminin tələblərini izah edib, sosial məsafənin qorunmasını xatırladıblar. Polislərin tibbi maska paylamalarını isə sakinlər rəğbət hissi ilə qarşılayıblar.



***Vüsal Məmmədov,***
***polis baş serjantı***

# Mübarizənin ön sıralarında

**Böyük rus yazıçısı Lev Tolstoyun “mən dünyada iki böyük bədbəxtlik tanıyıram: Bunlardan biri vicdan əzabı, o biri də sağalmaz xəstəlik olan narkomaniyadır”** fikri hələ bundan sonra ona dünya şöhrəti gətirən əsərləri kimi ölməzlik qazandıracaq. Səmavi kitabların mahiyyətini dərk etməkdə aciz olan bəşər övladına doğru yol göstərmək, ilahi fikrin daha sadələşdirilmiş formasını qələmə almaq üçün yenə də insanların içindən seçilmişləri yer üzünə göndərməklə Xaliq bizlərə necə lütfkar olduğunu göstərdi. Göylərdən gələn sözün yerdə yayılması zaman alsa da insan Tövratda, Zaburda, İncildə oxuduqlarını Qurani- Kərimdə görəndə heyrətləndi. Çünki Adəmlə yaşıd olan ulu və uca Söz bütün dövrlərdə dünyanı xilas etmək üçün göndərilmişdi.

Bu gün dünya dini, irqi ayrıseçkiliklə, (halbuki bütün səmavi kitablar bunlara qarşıdır) siyasi, iqtisadi bölücülüklə yanaşı, daha böyük bir bəla ilə üzbəüzdür. Aparılan mübarizənin səmərəliliyini artırmaq üçün götürülən öhdəliklər tezliklə qalibiyyət vəd etməsə də onun pandemiya halına çevrilməsinə əngəl ola bilir. Narkomaniya. O insan həyatını məhv edən bütün viruslardan daha qorxuludur.

Azərbaycan narkotiklərin daşınmasında maraqlı olan güclərin hədəfindədir. Narkotranzitə nəzər salsaq onun istiqamətlərini müəyyənləşdirə bilərik:

Narkotranzitə nəzər salaq:

Qərb istiqamətində. Cəlilabad-Qəndəhar-Hilmend vilayəti-Zahidan-Tehran-Təbriz-İstanbul-Avropa. Və yaxud Təbriz-Bakı-Moskva-Avropa.

Cənub istiqamətində. Peşəvər-Kəraçi-dəniz yolu ilə irəli, Avropa-yaxın Şərq və Cənub-Şərqi Asiya-ABŞ.

Dünyanın supergücləri narkotiklərin daşınmasının qarşısını almaq üçün çoxşaxəli, ardıcıl tədbirlər həyata keçirsələr də narkotacirlər müasir innovativ üsullardan istifadə etməklə məqsədlərinə çatırlar. Onlayn yolla yayılan narkotik ticarəti XXI əsrin yeniliklərindəndir. Asan pul qazanmağın yolunun internetdən keçəcəyini illər öncə kimsə ağlına belə gətirməzdi. Şübhəsiz ki, narkotacirlər də bu imkanlardan yetərincə yararlanıb milyonlara sahib olurlar.

Hər il tonlarla narkotik vasitə dövriyyədən çıxarılır, məhv edilir. Hüquq mühafizə orqanlarının qətiyyəti sayəsində cəmiyyətin narkotiklərdən asılılığının qarşısı alınır. Statistika göstərir ki, bu gün cinayətlərin əksəriyyəti narkotik istifadəçiləri tərəfindən törədilir. Təəssüf hissi ilə qeyd edək ki, dünyanın müharibə ocaqlarında da narkotik izini görmək mümkündür. Məscidi, kilsəni, sineqoqu partlatmaqla onlara cənnət vəd edənlərin “gücü” narkotikdədir. Törədilən terror hadisələrinin əksəriyyətini narkotikin təsiri altında olanlar həyata keçirirlər.



Ölkəmiz də erməni terrorundan əziyyət çəkir. İşğal olunmuş torpaqlarımızda erməni terror qruplaşmaları məskən salıblar. Kəşfiyyat məlumatları həmin ərazilərdən narkotranzit kimi istifadə olunmasını təsdiqləyir. Bu gün narkotik maddələr işğal olunmuş ərazilərimizdən Axalkalakiyə, oradan Türkiyə və Gürcüstana, oradan Rusiya Fedarasiyasına və digər Avropa ölkələrinə ötürülür. BMT-nin sənədləri sırasında işğal olunmuş ərazilərimizdə ermənilər tərəfindən əkilən, kultivasiya edilən, narko-loborotoriyalara yola salınan, qeyri-qanuni becərilən narkotika sahələrini əks etdirən fotoşəkillər, digər kəşfiyyat məlumatları var.

*Ardı 4-cü səhifədə.*

# “Qızıl” külçələr

## Dostlarını inandırsalar da, polisdən qaça bilmədilər

**Ölkəmizdə sahibkarlığın inkişafına, biznes mühitinin yaxşılaşdırılmasına dövlət tərəfindən daima qayğı göstərilir. Onların hüquqlarının müdafiəsində aidiyyatı qurumlarla yanaşı daxili işlər orqanlarının fəaliyyəti də təqdirəlayiqdir...**



Yasamal Rayon Polis İdarəsinin İstintaq şöbəsi əməkdaşları tərəfindən müxtəlif vaxtlarda etibardan sui-istifadə edərək özgənin əmlakını ələ keçirmə və aldatma yolu ilə qazanc əldə etmək üçün vətəndaşlara maddi ziyan vuran şəxslər saxlanılıblar.

Tofiq İsmayılov tanışı Təranə Nəbiyeva ilə cinayət əlaqəsinə girərək saxta külçələri girov qoymaq müqabilində kredit götürmək və aralarında bölmək barədə razılığa gəliblər. Onlar 19 ədəd qızıl suyuna salınmış mis külçələri Yasamal rayonunda “Lombard” fəaliyyəti ilə məşğul olan Urfan Məmmədova verərək 41 min 363 manat götürüblər. Yalanlarının üstünün açılmadığını görən Tofiq və Təranə yeni plan qurublar. Növbəti qurban isə bu dəfə Mirismayıl Musayev olub. Ona da 17 ədəd “qızıl” külçə sataraq 23 min 6 yüz ABŞ dolları əldə ediblər. Bir neçə gündən sonra külçələrin saxta olduğunu bilən Mirismayılın pulunu geri istəməsi işlərini düyünə salıb. “Ziyan”ın qarşılanması məqsədilə geri qaytarılan həmin külçələri “Lombard”a qoyub yenidən pul götürmək istəyərkən “ilişib”lər. Külçələrin saxta olmasını müəyyən edən “Lombard” sahibləri asayiş keşikçilərinə üz tutublar.

İstintaq tədbirlərini həyata keçirən Yasamal RPİ İstintaq şöbəsinin müstəntiqi, polis mayoru Elnur Əsədov bildirdi ki, təqsirləndirilən şəxslər toplanmış materiallar əsasında cinayət məsuliyyətinə cəlb olunub və vətəndaşlara dəyən maddi ziyanın ödətdirilməsi təmin edilib.

Yeri gəlmişkən, Yasamal RPİ tərəfindən 2019-cu ildə mülkiyyət əleyhinə olan cinayətlər üzrə vətəndaşlara dəyən 1 milyon yüz doxsan bir min 8 yüz 8 manat maddi ziyanın 1 milyon yüz otuz altı min 8 yüz yetmiş manatı, yəni 95,4 faizi ödətdirilib. Bu ilin I rübündə mülkiyyət əleyhinə olan cinayətlər üzrə vətəndaşlara dəymiş maddi ziyanın 4 yüz qırx iki min 6 yüz on beş manatının 4 yüz otuz bir min 9 yüz on beş manatının ödənilməsi təmin edilib. Ödəmə 97,6 faiz təşkil edib.

*Teymur Əlizadə,*
*polis kapitanı*

# “Qara maska”lılar

**Yaşadığı evin qarşısında avtomobilini saxlayarkən iki maskalı şəxsin ona ayağından bıçaqla xəsarət yetirərək 10 min ABŞ dollarını götürüb qaçmaları barədə Sabunçu RPİ 13-cü Polis Bölməsinə vətəndaş C.Səfərov tərəfindən müraciət daxil olub.**

Hadisənin “isti izlər”lə açılmasını təmin etmək üçün bölmə rəisi, polis polkovnik-leytenantı Nasir Babayev tərəfindən təcrübəli əməkdaşlardan ibarət əməliyyat-axtarış qrupu yaradılıb. Bölmənin rəis müavini, polis mayoru Əli Əsədullayev, əməliyyat müvəkkilləri, polis kapitanı Nadir Məmmədov və polis leytenantı Səyyad Əliyev dərhal hərəkətə keçiblər. Quldurluğu törətməkdə şübhəli bilinən, Masallı rayon sakinləri Ələkbər Abduləhədov və Samir Şəmmədov saxlanılıblar. Araşdırmalar zamanı maraqlı faktlar ortaya çıxıb. Bəlli olub ki, zərərçəkmiş Ələkbərin öz qohumudur. Ələkbər rayonda olarkən həmkəndlisi Samirə üzərində həmişə küllü miqdarda pul olan bir nəfəri tanıdığını deyib. Tanınmasınlar deyə üzlərinə qara maska keçirən “dostlar” istəklərinə çatdıqdan



sonra izi itirmək məqsədilə maskalarını hadisə yerindən 150-200 metr aralıda tullayıblar. Vaxt itirmədən aradan çıxmaq istəsələr də asayiş keşikçilərindən çox uzaqlaşa bilməyiblər. Bölməyə gətirilən Ə.Abduləhədov və S.Şəmmədov əvvəlcə törətdikləri əməli etiraf etməyiblər. Lakin onlara təqdim edilən tutarlı dəlil-sübutlar qarşısında aciz qalıblar.

*Natiq Abdullayev,*
*polis kapitanı*

# XX ƏSRİN ƏN SƏS-KÜYLÜ CİNAYƏTLƏRİ

**İlk insanı cinayətə sürükləyən qısqanclıq idi. Zaman dəyişir, səbəblər artır və bu cəmiyyətin hələ bundan sonra da ən ağır, insanlığı təhdid edən cinayətlərə şahidlik edəcəyini açılmaz edir. Cinayətkar isə cəzasına ya tezliklə çatır, ya da illər sonra.**

1911-ci ildə “Mona Liza” Luvr muzeyindən oğurlanıb. Hamı “Mona Liza”nın məhv edildiyini düşünsə də, əsər 3 il sonra İtaliyada tapılıb. Vinçenzo Perugi onu satmağa cəhd edərkən yaxalanıb. “Mono Liza” muzeyə qaytarılıb.

*****

1950-ci ildə 11 nəfər Londondakı məşhur Hitrou Hava limanındakı “Brinks Mat” anbarına girərək təhlükəsizlik əməkdaşlarını zərərsizləşdirdikdən sonra 1,2 milyon dollar nağd pul və 1,5 milyon dollar dəyərində çek oğurlayıblar. Dəstənin üzvü Jozef O-Kiif hər şeyi etiraf etdikdən sonra, 1957-ci ildə dəstə ələ keçirilib.

*****

15 oğru 8 avqust 1963-cü ildə Qlazqo və London arasında hərəkət edən poçt qatarını soyub. 7 milyondan artıq sərvət oğurlayan dəstəyə əməliyyat üçün cəmi 15 dəqiqə lazım gəlib. Polis isə onları tutmaq üçün 39 il çalışıb. Dəstənin üzvü Roni Bigs 2001-ci ildə polisə təslim olub.

*****

Məşhur jurnalist Uilyam Randolfun nəvəsi Patrisiya Herst 2 fevral 1974-cü ildə 19 yaşında qaçırılıb. Qaçıranların inqilabi sol təşkilatı olduğu ortaya çıxıb. Gənc qızın, qaçırılmağından iki ay sonra bank soyğununda iştirak etdiyi məlum olub. Hətta solçu təşkilat Herstin atasından Kaliforniyadakı bütün acları doyuzdurmağı əmr edib. Herst təşkilatdan çıxar-çıxmaz tutulub və 22 ay həbsdə yatıb.

*****

İngiltərənin depozit bankı “Barings”in müştəriləri siyahısında hətta kraliça da olub. XX əsrin sonunda “Barings” əzmli və yeni işçilər alacağını bildirib. İşləmək üçün müraciət edənlərdən biri də Nik Lison olub. Qısa vaxtda uğur qazanaraq Sinqapurdakı şöbənin müdiri olan Lison daha sonra bankın kompüter sistemindəki bəzi məxfi məlumatları oğurlayıb. “Nikkie” birjasına daxil olan Lison təkcə özünün yox, bütün bankın büdcəsini ora yatırıb. Çox keçməmiş birja alt-üst olub və bank batıb. “Barings” holland şirkəti tərəfindən alınıb, Lisona isə 6,5 il həbs verilib. Hazırda o azadlıqdadır və futbol komandalarının birində baş məşqçi işləyir.

*Ruhiyyə Əliyeva,*
*polis baş leytenantı*

# Mübarizənin ön sıralarında

*Əvvəli 3-cü səhifədə.*

Yeri gəlmişkən, erməni separatçılarını ittiham edən bütün bu ciddi sənədlər BMT sənədlərinə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin adı ilə düşüb.

**Ulu öndər Heydər Əliyevin təbirincə desək: “Biz nəinki narkotiklərin daşınması üçün tranzit ölkə kimi bununla mübarizə aparırıq, eyni zamanda istəyirik ki, ölkəmizin vətəndaşları arasında narkotik vasitələrdən istifadə yayılmasın...”**

Məlumdur ki, sovet dönəmində narkotiklərlə bağlı faktlar ictimailəşdirilməsə də mübarizə gedirdi. SSRİ dağıldıqdan, müstəqilliyinə qovuşan dövlətlərin qonşu ölkələrlə sərhədləri açıldıqdan sonra ilk mübarizə məhz narkotacirlərlə oldu. Bu gün Azərbaycanı, onun gələcəyini hədəfə alan güclər narkotikləri bütün mümkün vasitələrdən istifadə etməklə sərhədlərimizdən keçirməyə cəhd etsələr də, bu cəhdlərin qarşısı hüquq mühafizə orqanları tərəfindən qətiyyətlə alınır. Belə olmasaydı ötən il üç tondan çox narkotik vasitə qanunsuz dövriyyədən çıxarılmazdı.

Aparılan təbliğatın, keçirilən maarifləndirmə tədbirlərinin əsas məqsədi gəncliyimizi və gələcəyimizi qorumağa yönəlib. **Azərbaycan polisinin narkotiklərlə mübarizəsinə diqqət çəkən fransız ictimai-siyasi xadim Mişel Baylet 2012-ci ildə müsahibələrinin birində deyirdi: “Narkotiklərə qarşı döyüş səhnəsində Azərbaycan polisi canını qoyur, güllə qabağında dayanır... amma məğlub olmur...”.**

**Ötən əsrin 80-90-cı illərində Əfqanıstan Respublikasında narkokəşfiyyatın rəhbəri olmuş general-polkovnik Y.V.Larin xatırladırdı ki, İttifaq ərazisində yeganə Azərbaycan milisidir ki, (polisi) narkotiklərlə mübarizədə heç kəsdən və heç vaxt təmənna ummur. O, davam edirdi: “...Mən bununla bağlı qırx beş dəqiqə Moskvada Kremlin qurultaylar sarayında çıxış etmişəm... Narkotikdən rüşvət götürməyi Azərbaycan milisi heç vaxt öz şəxsiyyətinə sığışdıra bilmir. Mən narkotiklərə qarşı ölüm-dirim mübarizəsi aparan azərbaycanlını həmişə yanımda xatırlamışam...”**



Bu gün dünya koronavirus pandemiyası ilə mübarizəyə bütün gücünü səfərbər etsə də narkotiklərlə mübarizə də diqqətdən kənarda qalmır, hüquq mühafizə orqanları ayıq-sayıqlığını itirmirlər.

**Ötən rüb ərzində daxili işlər orqanları tərəfindən narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı aşkar olunmuş 1459 cinayət faktı üzrə qanunsuz dövriyyədən ümumilikdə çəkisi 489 kiloqram narkotik vasitə, 37 kiloqram psixotrop maddə aşkar edilərək götürülmüşdür.**

Narkotiklərə qarşı mübarizədə Azərbaycan Polisinin öz strategiyası, taktikası var. İndiyədək Azərbaycan ərazisində yüzlərlə narkoplantasiya, onlarla narko-laboratoriyalar məhv edilib, yandırılıb, kökü kəsilib. Beynəlxalq narkokorrupsiyada ittiham olunanlar, terror aktları həyata keçirmək istəyənlər həbs edilərək, mühakimə olunmaq üçün öz ölkələrinə göndəriliblər. Beynəlxalq qurumların sənədlərində, xarici kəşfiyyatın hesabat materiallarında bu barədə danışılıb, şərhlər verilib.

**Görünən odur ki, Azərbaycan Polisi adına və andına sadiq qalır və sabitlik adasını qorumaq üçün mübarizənin ön sırasındadır.**

*H.Təmirov*

# May ayının 6-dan 12-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən, ötən həftə ərzində törədilmiş 190 cinayətin üstü “isti izlər”lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 81 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 184, o cümlədən borclu şəxs qismində axtarışda olan 116 nəfər saxlanılaraq aidiyyatı üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 4 ağır yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə 4 nəfər ölmüşdür.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 109 fakt müəyyən edilmişdir.

# DÜNYAYA PƏNCƏRƏ

Türkiyənin Tekirdağ vilayətinin Malkara rayonunda yerli sakinlər polis və təcili yardım çağırıblar. Onlara Camiatik məhəlləsində bıçaqlı insident və yaralılar olduğu xəbəri verilib. Hadisə yerinə gələn hüquq mühafizə və tibb işçiləri maraqlı sürprizlə qarşılaşıblar. Məhəllə sakinləri onların əllərində tortla qarşılayıb və rəqs ediblər. Bununla sakinlər onlara öz dəstəklərini və təşəkkürlərini bildiriblər.

*****

***Koronavirus səbəbindən tətbiq edilən izolyasiya tədbirlərinə görə dünyada yol qəzaları 50-60 faiz azalıb. Bunu BMT-nin Baş katibinin yol hərəkətinin təhlükəsizliyi üzrə xüsusi müşaviri Jan Todt deyib.***

***Onun sözlərinə görə, azalma daha çox Fransa, Norveç, İsveç, İspaniyada müşahidə edilib. O, oxşar tendensiyaların Hindistan və Mərakeşdə də qeydə alındığını vurğulayıb.***

*****

Səudiyyə Ərəbistanı hökuməti koronavirus pandemiyası ilə əlaqədar tətbiq etdiyi qadağalara nəzarət etmək üçün xüsusi polis dəstələrinin yaradılması haqda göstəriş verib.

Polis ictimai və özəl müəssisələrə nəzarət edəcək, evlərdə, mağazalarda yoxlama aparmaq səlahiyyətləri əldə edəcək. Karantin qaydalarını pozan şəxslər 100 min real (45 min manat) cərimə olunacaq.

*****

***Çeçenistan prezidenti özünütəcrid və icazə rejimini pozan qadınlara qarşı maraqlı mübarizə forması düşünüb. İcazəsiz və maskasız küçəyə çıxan qadınların ərləri və qardaşları cəzalandırıla bilər. Bunu barədə Çeçenistan Parlamentinin spikeri Maqomed Daudov məlumat verib.***

***Daxili İşlər Nazirliyi əməkdaşları mentalitet və dini baxımdan qadınları tutub bölməyə aparmaq və onlara toxunmaq istəmədiklərindən, qadınların əvəzinə qardaş və ərlərini məsuliyyətə cəlb etməyi məqsədəuyğun hesab edirlər. Buna görədə kişilər öz ailəsinin qadınlarının hara və necə çıxmasına nəzarət etməlidir.***

*****

ABŞ-ın Şimali Karolina ştatının Uinston-Seylem şəhərinin polisi nəhayət yerli dilerlərin qəniminə çevrilən dəstənin izinə düşə bilib. Martın 17-dən bəri 12 diler mərkəzindən 46 təptəzə maşın oğurlanıb. Altı dilerə hücum isə uğursuz nəticələnib.

Detektivlərin araşdırması nəticəsində məlum olub ki, cinayətkarların yaşı 9-dan 16-dək dəyişir. Tamamilə yeniyetmələrdən ibarət dəstə dilerlərə 1 milyon 138 min 718 dollar zərər vurub.

19 uşaqdan ibarət dəstənin ancaq 13-nü tapmaq mümkün olub. Onların yaşı az olduğundan həbs edilə bilməzlər. Forsayt dairəsinin Yuvenal Hüquq Departamenti polislərə müvafiq order verməkdən imtina edib. Ancaq zabitlər maşın qaçırılmaları ilə bağlı 19 yaşlı Mikel Binnsi saxlayıblar. Onun bu cinayətlərdə əli olduğu ehtimal edilir, çünki qaçırılan avtomobillərdən biri onun qarajında olub və saxlanılarkən polisə müqavimət göstərib.

*Natiq Cavadov*

MÜBARİZ KEŞİKDƏ

qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.

Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.

Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.

BURAXILIŞA MƏSUL:
E.ZAHİDOV

Qeydiyyat № 155. İndeks: 66993
Sayı 10.044

Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30

Çapa imzalanmışdır 16:30
Qiyməti 40 qəpik